TOPAZ FAN CLUB

18+ 926

1. LOTEREYANIN MÜDDƏTİ:
10.07.2023 – 09.09.2023

2. LOTEREYANIN TİRAJLARI:

10 İyul 2023-cü il tarixindən 09 Avqust 2023-cü il tarixinədək (daxil olmaqla) əldə olunan elektron kodlar 14 Avqust 2023-cü il tarixində keçirilən birinci tirajda oynanılacaq.

09 Avqust 2023-cü il tarixindən 10 Sentyabr 2023-cü il tarixinədək (daxil olmaqla) əldə olunan elektron kodlar isə 15 Sentyabr 2023-cü il tarixində keçirilən ikinci tirajda oynanılacaq.

3. LOTEREYADA İŞTİRAK QAYDALARI:

Lotereyada "Topaz Fan Club" mobil tətbiqində qeydiyyatdan keçmiş 18 yaşından yuxarı şəxslər iştirak edə bilər.

Lotereyada iştirak etmək üçün iştirakçı minimum 50 (əlli) əmsalı olan idman mərc oyunu bileti əldə etməlidir. Bir iştirakçı lotereyanın keçirildiyi müddət ərzində istənilən sayda bu tələbə cavab verən mərc oyunu bileti əldə edə bilər.
Minimum 50 (əlli) əmsalı olan 1 (bir) mərc bileti lotereyada iştirak üçün 1 (bir) elektron kod qazandırır.
Minimum 50 (əlli) əmsal dedikdə, oynanılmış bir mərc biletində iştirakçının etdiyi bir və ya bir neçə mərc seçimlərinin əmsallarının hasilinin ən azı 50 olması nəzərdə tutulur. Bu cür mərc bileti uduşlu olub-olmamasından asılı olmayaraq lotereyeda iştirak imkanı verir.

4. HƏDİYYƏ FONDU:

| № | ADI | SAYI | TİRAJ | SAYI | TİRAJ |
|---|---|---|---|---|---|
| 1 | Playstation 5 | 10 | 1 | 10 | 2 |
| 2 | Samsung Watch5 Pro BT 45mm | 10 | 1 | 10 | 2 |
| 3 | Samsung Galaxy A53 128 GB | 10 | 1 | 10 | 2 |
| 4 | Acer Aspire 3 | 10 | 1 | 10 | 2 |
| 5 | Samsung Galaxy A23 128 GB | 10 | 1 | 10 | 2 |
| 6 | Samsung Galaxy Tab A8 LTE 32GB | 10 | 1 | 10 | 2 |

5. UDUŞ FONDUNUN OYNANILMASI QAYDASI
Lotereyanın hər tirajının uduş fondu "Topaz Fan Club" mobil tətbiqində elektron formada oynanılır.
Qaliblər lotereyada iştirak edən elektron kodların kompüter vasitəsilə təsadüfi seçim yolu ilə (random üsulu) seçilir. Hər bir hədiyyənin qalibi random üsulu vasitəsilə ayrı-ayrılıqda müəyyən ediləcək. Misal olaraq, hər bir playstation hədiyyəsinin qalibi bir-bir seçiləcəkdir.

6. UDUŞLARIN VERİLMƏSİ QAYDASI VƏ MÜDDƏTLƏRİ
Təşkilatçı uduş fondunun oynanıldığı tarixdən 5 (beş) iş günü ərzində lotereyanın qalibləri ilə telefon və ya elektron poçt vasitəsilə əlaqə saxlayır.
Hər tirajın uduş fondu oynanıldıqdan sonra 5 (beş) iş günü ərzində uduş fondu və uduşa düşmüş elektron kodlar barədə məlumat təşkilatçının rəsmi veb-saytında (topaz.az) və editor.az kütləvi informasiya vasitələrində yerləşdiriləcək.
Qalib olmuş iştirakçı müvafiq tirajın oynanıldığı tarixdən 6 (altı) iş günü keçdikdən sonra 90 (doxsan) iş günü ərzində uduşu götürmək niyyətində olduğunu təşkilatçıya bildirməlidir. Həmin iştirakçı təşkilatçıya bildirdikdən sonra 30 (otuz) iş günü müddətində təşkilatçının ünvanına müraciət edərək şəxsiyyət vəsiqəsini, əcnəbidirsə, əcnəbi pasportunu və ya Azərbaycan Respublikasında müvəqqəti və yaxud daimi yaşamaq üçün miqrasiya orqanlarından verilmiş icazə sənədini, həqiqi hərbi xidmətdə olan şəxsdirsə, hərbi biletini təqdim etməklə uduşlarını götürə bilər.

TOpaz